**UOT 94 “04\15”**

# MÜSTƏMLƏKƏ DÖVRÜNDƏ İNDONEZİYADA İSLAM

**K.M.SOFİYEVA**
***Bakı Dövlət Universiteti***
***sofiyeva@rambler.ru***

*Məqalə İndoneziyanın Portuqaliya və Hollandiya tərəfindən işğal olunması, müstəmləkəçilərin Macapaxit dövlətinin süqutundan sonra burada möhkəmlənmiş islam sultanlıqları ilə münasibətlərinə həsr olunmuşdur. Burada həmçinin avropalıların İndoneziya adalarında xristianlığı yaymaq cəhdlərini nəzərdən keçirilmişdir. Məqalədə bu cəhdlərin heç bir nəticə vermədiyi ön plana cəkilmişdir.*

**Açar sözlər:** İndoneziya, Portuqaliya, Hollandiya, islam, Yava

Hələ böyük coğrafi kəşflər dövründən Cənub-Şərqi Asiyanın adalar aləminin müstəmləkəyə çevrilməsi avropalıların əsas məqsədi olmuşdur. Belə ki, məhz burada cənub dənizləri ölkələrində ekzotik məhsullar, ilk növbədə ədviyyatlar yetişdirirdi. Bu məhsullara sahib olmaq istəyi müstəmləkəçilər üçün stimul idi. XVI – XVII əsrlərin qovşağında Cənub – Şərqi Asiya dünya ticarət sistemində mühüm yer tuturdu.

İndoneziyanı Cənub-Şərqi Asiyanın müstəmləkəçilərin möhkəmləndiyi ilk rayonlarından hesab etmək olar. İndoneziya adalarında müstəmləkə ekspansiyası XVI əsrdən portuqaliyalılar tərəfindən başlanmışdır. Müsəlman hakim tərəfindən idarə olunan Malakka İndoneziyada islamın yayılmasının əsas mərkəzi idi. Buna görə də, 1511-ci ildə Malakkanın tutulması çox böyük əhəmiyyət kəsb edirdi. Ilk dövrlərdə portuqaliyalılar burada müdafiə mövqeyi tuturdular. Qonşu ölkələr tabe edilməmişdi, İndoneziyanın müsəlman hakimləri onlara düşmən münasibət bəsləyirdilər. Qeyd etmək lazımdır ki, İndoneziya adalarında islam dini XIII əsrdən yayılmağa başlamışdır. 1526-cı ildə portuqaliyalılar Malakkanın ələ keçirilməsindən sonra onlara qarşı mübarizə aparan Malakka hakimi sultan Mahmudu məğlub etdilər. Müsəlman tacirləri isə Malakkaya girməmək üçün öz dayaq məntəqələrini Kalimantanın şimal-şərq sahilində yerləşən Bruneyə köçürdülər. Bruney islamın yeni yayılma mərkəzi oldu.

Bundan sonra, 1526-cı ildən portuqaliyalılara qarşı mübarizəyə Açe (Sumatara adasında) başçılıq etməyə başladı. 1529-1587-ci illərdə Açe sultan dəfələrlə Malakkanı ələ keçirməyə cəhd etmişdir (1, 172-175).

1512-ci ildə portuqaliyalılar Molukk adalarında göründülər. Şərqi İndoneziya sultanlıqları Ternate və Tidore arasındakı ziddiyyətlərdən və hərbi qüvvədən məharətlə istifadə edərək mixək və qoz istehsalı rayonu olan Molukk adalarında ədviyyat satın almaq inhisarı əldə etdilər. Portuqaliyalıların müdaxiləsi ənənəvi ticarət əlaqələrini pozdu, yerli iqtisadiyyata ciddi zərər vurdu. Konkistadorların pirat hərəkətləri, ədviyyatlara aşağı qiymətlərin qoyulması, zorla katolikliyin yayılması cəhdləri – bütün bunlar böyük kənd təsərrüfatı rayonlarının müflisləşməsinə və boşalmasına gətirib çıxarırdı. XVI əsrdə siyasi-ideoloji sahədə əsas dəyişikliklər isə yeni dövlət qurumlarının yaranmasında və islam dininin mövqelərinin möhkəmlənməsində öz əksini tapdı. Bir sıra İndoneziya dövlətləri, xüsusilə XVI əsrin II yarısında portuqaliyalılarla mübarizəyə başladılar.

1293-1520-ci illərdə mövcud olmuş Macapaxit dövlətinin süqutu onun ərazisində islam knyazlıqlarının və sultanlıqlarının yaranması ilə bağlı idi (2, 15). 1519-cu ildə bu sultanlıqlardan ibarət koalisiya Macapaxit dövlətinin paytaxtını darmadağın etdi. Bunların bəziləri (XIV əsrin əvvəllərində Pasey, XV-XIX əsrlərdə Açe, XVI-XVII əsrlərdə Bantam və Demak və b.) həm kifayət qədər inkişaf etmiş feodal dini ierarxiyaya, həm də məhşurluq qazanmış dini məktəblərə malik idilər. Müsəlman aləmində Bantam (Qərbi Yava) dövlətinin əhəmiyyətinin təsdiqlənməsinin sübutu onun hakiminə 1638-ci ildə Məhəmməd peyğəmbərin nəsli hesab edilən Məkkə hakimləri tərəfindən təsdiq edilmiş sultan titulunun verilməsi oldu. 1641-ci ildə bu titul Mataram (Şərqi Yava) hakimi Aqunqa da (1613-1645) verildi (3, 53). Müstəmləkə ekspansiyasının genişlənməsi ilə bütün bu dövlətlərdə islamın əsarətçi - xristianlarla "müqəddəs müharibənin" ideya bayrağı kimi əhəmiyyəti artırdı (4, 17).

Islamın sürətlə yayılması portuqaliyalıların planlarına ciddi zərər vururdu. Banda və Ambion adalarının hakimləri Yavanın müsəlman hakimləri ilə sıx əlaqə saxlayırdılar. 1535-ci ildə Yavanın bütün şimal sahili islamı qəbul etdi. Belə şəraitdə islamın yayılmasının qarşısını almaq üçün müsəlman xalqları katolikliyə gətirmək qərara alındı. İslamın qələbə çaldığı yerlərdə katolik missiyalarının qələbəyə heç bir ümid yox idi.

Missioner fəaliyyəti ilk növbədə Yavanın islamın daxil olmadığı rayonlarını əhatə edirdi. Lakin missionerlər çox gec gəlmişdilər. Şərqi Yavanın çox ucqarları istisna olmaqla, burada islam dini möhkəmlənmişdi. Indoneziyada xristian kilsəsi ən çox uğuru Molukk və Kiçik Zond adalarında qazana bildi. Molukk adalarında ilk katolik missiyaları hələ 1518-ci ildə meydana çıxmışdılar. Artıq XVI əsrin sonlarında portuqaliyalıların gəlişinədək islamı qəbul etmiş cənubi Molukk adalarında kifayət qədər böyük katolik icması yaranmışdı.

Bu rayonlarda xristianlığın yayılma mərkəzləri, bir qayda olaraq, burada portuqaliyalılar tərəfindən tikilən qalalar idi. Hər bir rayonda xristianlığın

möhkəmliyi adətən portuqal dayaq məntəqələrinin hərbi imkanları ilə müəyyən olunurdu. Portuqal hərbi bazalarının ləğv olunduğu ərazilərdə, yerli xristian əhali dərhal ya əvvəlki etiqatlarına qayıdır, ya da islamı qəbul edirdilər (5, 12). Çünki Molukk adalarında portuqaliyalılar olduqça pis ad qazanmışdılar. Missionerlərin çoxu müstəmləkə soyğununda çox aktiv iştirak edirdilər. Hətta o dövrün kilsə sənədlərində xristian təbliğatçılarının açgözlüyünə və aşağı əxlaq səviyyəsinə dair şikayətlərlə doludur. Burada portuqaliyalıların vəziyyətini Filippin adalarında müstəmləkə rejimi yaratmış İspaniya ilə toqquşmalar, həmçinin ingilislərin bu sulara daxil olmaq cəhdləri daima kəskinləşdirirdi.

1596-cı ildə İndoneziyaya ilk holland ticarət ekspedisiyası gəldi. Ticarət partnyoru kimi onları mehribanlıqla qarşıladılar. Bantamlıların xeyirxah münasibəti ən əvvəl onunla izah olunurdu ki, onlar hollandları portuqallarla və Mataramla mübarizədə öz müttəfiqləri kimi görürdülər. Holland müstəmləkəçiləri isə İndoneziya əhalisinin portuqal işğalçılarına olan nifrətindən öz məqsədləri üçün istifadə edirdilər. Özünü Indoneziya knyazlıqları feodal hakimlərinin müttəfiqi kimi qələmə verən holland Ost – Hind kompaniyası yavaş – yavaş, lakin durmadan, qəti sürətdə ölkədə öz mövqelərini möhkəmləndirirdi. Beləliklə, İndoneziyada portuqal ağalığı uzun sürmədi. XVI-XVII əsrin qovşağında burada hollandlar möhkəmləndilər.

Indoneziya əhalisi tezliklə əmin oldu ki, holland işğalçıları acgözlükdə heç də portuqallardan geri qalmırlar. Hollandlara Yava adasında öz mövqelərini saxlamağa Bantam və Mataram arasında düşmənçilik kömək etdi.

1620-ci ildə Yavada möhkəmlənən hollandlar bütün portuqaliyalı missionerləri adadan qovdular. XVII əsrin II yarısında Hollandiyanın hakimiyyəti altına keçən İndoneziya katoliklərinin bir hissəsi protestantlığı qəbul etdi. Hollandlar onlardan öz müstəmləkə ordularında əsgər kimi istifadə edirdilər. Bir hissəsi isə tamamilə xristianlıqdan imtina edərək, müsəlmanlığı qəbul etdilər. Katolik kilsəsi yalnız Kiçik Zond adalarının şərqində qala bildi. Lakin XX əsrədək burada da katoliklər heç vaxt əhalinin əsas hissəsini təşkil etmirdilər. Ümumiyyətlə, İndoneziyada xristian dini yayılmadı, baxmayaraq ki, holland ağalığı burada İkinci dünya müharibəsinə kimi davam etdi (6, 5).

XVI əsrdən başlayaraq xaricilərin ölkəyə soxulması və bitməyən ara müharibələri nəticəsində, həmçinin islam və islamaqədərki adət-ənənələr arasındakı mübarizə səbəbi ilə İndoneziya mədəniyyəti dərin və uzunsürən böhran yaşayırdı.

## ƏDƏBİYYAT


1. Холл Д.Дж.Е. Юго–Восточная Азия. М., Иностранная литература, 1958, 598 с.
2. Симония Н.А. Индонезия. М.: Мысль, 1978, 168 с.
3. Индонезия. М.: Наука, 1983, 398 с.
4. Ионова А.И. Ислам в Юго-Восточной Азии: проблемы современной идейной эволюции. М.: Наука, 1981, 264 с.
5. Берзин Э.О. Католическая церковь в Юго-Восточной Азии. М.: Наука, 1966 320 т.
6. Бычков С.В. Изумрудное оперение Гаруды. М.: Мысль, 1987, 188 с.

## ИСЛАМ В ИНДОНЕЗИИ В КОЛОНИАЛЬНЫЙ ПЕРИОД

**К.М.СОФИЕВА**

**РЕЗЮМЕ**

Статья посвящена захвату Индонезии Португалией и Голландией, отношениям колонизаторов с исламскими султанатами, укрепившихся здесь после распада Маджапахитского государства. Автор также рассматривает попытки европейцев распространить христианство в Индонезийских островах. В статье на передний план выдвигается безрезультатность этих попыток.

**Ключевые слова:** Индонезия, Португалия, Голландия, ислам, Ява

## ISLAM IN INDONESIA DURING THE COLONIAL PERIOD

**K.M.SOFIYEVA**

**SUMMARY**

The article deals with Indonesia's occupation by Portugal and Holland, relations of colonialists with Islam sultanates which became stronger after the decline of the Majapakhit state of the colonizers. The author illustrates Europeans attempts to spread Christianity in Indonesian islands as well. The failure of these efforts are underlined in the article.

**Key words:** Indonesia, Portugal, Holland, Islam, Java